# Şeir və musiqi



■ Fərid Hüseyn

Şeir çox güman ki, musiqidən yaranıb... Əsas ecaz musiqidədir. Rəsmdə rəssamın əməyi donmuş haldadır. Şeiri isə hər səsləndirilәndə yenidən canlanır. Bununla da eyni poetik əsər həm həm şairin olur, həm də oxucunun. Şeir ancaq düzgün səsləndiriləndə şairə aiddir - yəni şairin intonasiyası həm də onun bəstəsidir.

Bu gün şeir bir sıra incəsənət növləri ilə birləşir, ancaq bunun əksinə olaraq şeirin bətnindəki musiqi zəifləyir. Ona görə də çağdaş şairlərin "üslub"ları bir-birinə bənzəyir, sanki müxtəlif sözlər bir bəstədə, eyni "musiqi" ilə oxunur.

Homerin "dastan"larında adı çəkilən musiqi aləti - lir bizə yaxşı tanışdır. "Lirik" sözünün antik yunan kəlməsi olan lirdən yaranması təsadüfi deyil. Bu, şeirin musiqi ilə bağlılığına aid məsələdir.

## QAYIDIŞ

Poeziyada dünyanın indiki durumu ilə uzlaşmayan qəribə bir hal müşahidə olunmaqdadır; şeirdə liriklər yenidən poeziyanın önündədirlər. Sosial şəbəkə dövründə, internet əsrində lirik şairlər, daha çox lirik sitatlar müəllifi kimi oxucuların sevimli müəllifinə çevrilirlər. Sosial şeirlər, "cəmiyyət poeziyası", sanki, bir qədər arxa plana keçib, sərt ironik poetik dil isə demək olar, əvvəlki hörmətində qəbul edilmir, arxaik sayılır. Bir sözlə, çağdaş şairlər yumruqla yox, əllərini ürəklərinin üstünə qoyaraq "danışırlar". Lirizmin mahiyyətini - özəyini isə musiqi (özünəməxsus intonasiya) təşkil edir. Ona görə şeirin sirayətedici ritmə, musiqiyə qayıdışı labüddür.

## ÇAĞDAŞ DÜNYA

Hesablamalara görə müasir dünyada insanlar mədəniyyətə ancaq 10 saat vaxt sərf edə bilirlər. Bunun isə sadəcə bir neçə dəqiqəsini şeirə ayrılan vaxt tutur. Çünki müasir dünyada "mədəniyyət" dedikdə daha geniş müstəvidə kino və musiqi başa düşülür. Şeirin gələcəkdə sevilməsi, poeziya vurğunlarının artması birbaşa musiqidən asılı məsələ olacaq. Bu gün oxucuların şeir zövqünün korlanması da musiqidən qidalanır. Bayağı mahnıların həvəskarları həm də mənasız şeirləri sevirlər.

## OVQAT MUSİQİSİ

Bu gün şeirdə musiqinin gücü azalıb. Əksərən poeziyada musiqi şairin fərdi poetik intonasiyasında mövcuddur. Sanki şeir indi dinlənilmək yox, oxunmaq üçündür. Amma bu proses çox güman, davamıqlı olmayacaq, şairlər ya yenidən qafiyəli şeirə geri qayıdacaqlar, yaxud sərbəst şeir özü müstəqil musiqisini tapacaq və yaxud da ağ şeir şairləri əsərlərinə müasir zamana bab hansısa ritmə uyğunlaşacaqlar. Əks təqdirdə, şeir ilkin mahiyyətini itirəcək və bəlkə də, bu proses artıq reallaşmaqdadır.

## ÖLÜM

Şeiri yazarkən şairin içərisində bir ovqat yaranır. Sonra həmin ovqat zamanla poetik intonasiyaya çevrilir. Bu həm də şairin yaşam musiqisidir. Ancaq çox şey kimi o duyğular da ötüb keçir və şair daha həmin şeiri yazıldığı intonasiyada oxumur, yaxud oxuya bilmir. Bu zaman şeirdəki sözlər sanki öz-özünə gül kimi solur, əvvəlki təravətini itirir. Elə bil, şeirin sözləri yaşayır, musiqisi ölür...

## MUSİQİ

Bizim şeir təfəkkürümüz musiqi təfəkkürümüzdən öndədir. Musiqimiz öz milli ənənələrinə söykənərkən çağdaş şeirimizlə bərabər yenilənə bilmir. Çünki musiqi xalq təfəkkürünə yaxın məsələdir, çox zaman da onunla bərabər yürüməyi sevir. Buna görə də şeirimiz qədər musiqimizdə mərhələlər yoxdur. Sovet dövründə isə bu bərabərlik hansı dərəcədəsə olub. Bu fərqlərinin nəticəsində bugünkü sərbəst şeirlərin çoxu "bəstəyə gəlmir", çünki indiki musiqimiz onu bu cür poetik əsərlərə yaxın buraxmaq istəmir. Əlbəttə, çağdaş şairlərimizin gitarada şeirləri çox oxunur. Amma o yeni musiqi yolu da sərbəst şeirimizin yolu kimi müasirliyə açıqlıqdan yaranıb. Fəqət burada kütləvi maraqdan söhbət gedə bilməz.

Bəzən deyirlər ki, Türkiyə türklərinin, rusların, ingilislərin sərbəst şeiri musiqiyə rahat oturur, Azərbaycan sərbəst poetik nümunələri isə yox. Bu yanlış qənaətdir, çünki musiqimiz bütün gücü ilə çağdaş şeirimizin yanında deyil. Musiqimizin elit havası retroda, şeirimizin elit nəfəsi isə avanqardadır...

Kaspi 2019.- 14-16 dekabr.- S.16.